**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 412
10.33864/2617-751X.2025.v8.i8.369-379

# DEVELOPMENT OF EMOTIONAL INTELLIGENCE IN CHILDREN AND ITS INTEGRATION INTO THE SOCIAL PROTECTION SYSTEM

**Ilham Hasanzade***

**Abstract.** In modern socio-psychological research, the development of emotional intelligence in children is recognized as an important predictor of social adaptation and psychosocial well-being. Emotional intelligence encompasses an individual's ability to recognize, manage, and adequately express their own and others' emotions in social interactions. In Azerbaijan, the social protection system supports the psychological, emotional, and social needs of children, thereby fostering their resilience and social skills. Social risk factors, including digital inequality, housing conditions, and unequal access to educational resources, negatively affect children's emotional stability. In this context, the implementation of an integrative approach aimed at developing emotional intelligence within social protection programs is essential. Azerbaijan's legal and regulatory framework and social protection strategies in the field of child rights create favorable conditions for children's comprehensive development. The integration of emotional intelligence into the social protection system contributes to the enhancement of children's psychosocial well-being, the reduction of social dependency risks, and their successful integration into society. **Purpose-** To explore the development of emotional intelligence in children and to determine its integration with the social protection system. **Methodology-** Analytical, empirical, and survey methods, as well as quantitative and qualitative analyses, were used to examine the impact of the development of emotional intelligence and its integration into the social protection system on children's social adaptation and well-being. **Scientific novelty-** The application of an integrative approach that combines the development of emotional intelligence in children with the social protection system.

**Keywords:** emotional intelligence, social protection, child development, psychosocial well-being, integration model

* teacher of the Department of Sociology at Baku State University; Baku, Azerbaijan
E-mail: hasanzade.ilham99@mail.ru
https://orcid.org/0009-0004-7061-7572

**To cite this article:** Hasanzade, I. [2025]. DEVELOPMENT OF EMOTIONAL INTELLIGENCE IN CHILDREN AND ITS INTEGRATION INTO THE SOCIAL PROTECTION SYSTEM. *"Metafizika" journal, 8*(8), pp.369-379.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.369-379

***Article history:***
*Received: 10.10.2025*
*Accepted: 13.11.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 412
10.33864/2617-751X.2025.v8.i8.369-379

# РАЗВИТИЕ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА У ДЕТЕЙ И ЕГО ИНТЕГРАЦИЯ В СИСТЕМУ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ

**Ильхам Гасанзаде***

**Абстракт.** В современных социально-психологических исследованиях развитие эмоционального интеллекта у детей рассматривается как важнейший предиктор социальной адаптации и психосоциального благополучия. Эмоциональный интеллект включает в себя способность человека распознавать, управлять и адекватно выражать собственные и чужие эмоции в социальных отношениях. В Азербайджане система социальной защиты способствует удовлетворению психологических, эмоциональных и социальных потребностей детей, развивая их устойчивость и социальные навыки. Социальные рисковые факторы, включая цифровое неравенство, жилищные условия и неравный доступ к образовательным ресурсам, оказывают негативное влияние на эмоциональную стабильность детей. В этом контексте необходимо внедрение интегративного подхода, направленного на развитие эмоционального интеллекта в рамках социальных программ. Правовая и нормативная база Азербайджана в сфере прав ребенка, а также стратегии социальной защиты создают условия для комплексного развития детей. Интеграция эмоционального интеллекта в систему социальной защиты способствует повышению психосоциального благополучия детей, снижению рисков социальной зависимости и успешной интеграции в общество. **Цель** – исследовать развитие эмоционального интеллекта у детей и определить пути его интеграции в систему социальной защиты. **Методология** – аналитический, эмпирический и социологический методы, количественный и качественный анализ, направленные на изучение влияния развития эмоционального интеллекта и его интеграции в систему социальной защиты на уровень социальной адаптации и благополучия детей. **Научная новизна** – применение интегративного подхода, объединяющего развитие эмоционального интеллекта у детей с системой социальной защиты.

**Ключевые слова:** эмоциональный интеллект, социальная защита, развитие детей, психосоциальное благополучие, модель интеграции

---

* учитель кафедры социологии Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: hasanzade.ilham99@mail.ru
https://orcid.org/0009-0004-7061-7572

**Цитировать статью:** Гасанзаде, И. [2025]. РАЗВИТИЕ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА У ДЕТЕЙ И ЕГО ИНТЕГРАЦИЯ В СИСТЕМУ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ. *Журнал «Metafizika»*, *8*(8), c.369-379.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.369-379

***История статьи:***
*Статья поступила в редакцию: 10.10.2025*
*Отправлена на доработку: 13.11.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6
**MJ №** 412
10.33864/2617-751X.2025.v8.i8.369-379

# UŞAQLARDA EMOSİONAL İNTELLEKTİN İNKİŞAFI VƏ SOSİAL MÜDAFİƏ SİSTEMİNƏ İNTEQRASİYASI

**İlham Həsənzadə***

**Abstrakt.** Müasir sosial-psixoloji tədqiqatlarda uşaqlarda emosional intellektin inkişafı sosial adaptasiya və psixososial rifahın mühüm prediktoru kimi qəbul edilir. Emosional intellekt fərdin öz və başqalarının emosiyalarını tanıması, idarə etməsi və sosial münasibətlərdə adekvat ifadə etməsi qabiliyyətini ehtiva edir. Azərbaycanda sosial müdafiə sistemi uşaqların psixoloji, emosional və sosial ehtiyaclarını qarşılamaqla onların dayanıqlılığını və sosial bacarıqlarını inkişaf etdirir. Sosial risk faktorları, o cümlədən rəqəmsal bərabərsizlik, mənzil şəraiti və təhsil resurslarının qeyri-bərabərliyi uşaqların emosional sabitliyinə mənfi təsir göstərir. Bu kontekstdə, sosial müdafiə proqramlarında emosional intellektin inkişafına yönəlmiş inteqrativ yanaşmanın tətbiqi zəruridir. Azərbaycanın uşaq hüquqları sahəsində hüquqi-normativ bazası və sosial müdafiə strategiyaları uşaqların kompleks inkişafına şərait yaradır. Emosional intellektin sosial müdafiə sisteminə inteqrasiyası uşaqların psixososial rifahının yüksəlməsinə, sosial asılılıq risklərinin azalmasına və cəmiyyətə uğurlu inteqrasiyasına töhfə verir. Məqsəd- Uşaqlarda emosional intellektin inkişafını araşdırmaq və bu inkişafın sosial müdafiə sistemi ilə inteqrasiyasını müəyyən etməkdir. Metodologiya – analitik metod, empirik metod, sorğu metodları, kəmiyyət və keyfiyyət analizi vasitəsilə uşaqlarda emosional intellektin inkişafı və sosial müdafiə sisteminə inteqrasiyasının uşaqların sosial adaptasiya və rifah səviyyəsinə təsiri araşdırılması. Elmi yenilik-uşaqlarda emosional intellektin inkişafını sosial müdafiə sistemi ilə birləşdirən inteqrativ yanaşmanın tətbiqi.

**Açar sözlər:** emosional intellekt, sosial müdafiə, uşaqların inkişafı, psixososial rifah, inteqrasiya modeli

* Bakı Dövlət Universiteti sosiologiya kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: hasanzade.ilham99@mail.ru
https://orcid.org/0009-0004-7061-7572

**Məqaləyə istinad:** Həsənzadə, İ. [2025]. UŞAQLARDA EMOSİONAL İNTELLEKTİN İNKİŞAFI VƏ SOSİAL MÜDAFİƏ SİSTEMİNƏ İNTEQRASİYASI. *“Metafizika” jurnalı, 8*(8), səh.369-379.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.369-379

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 10.10.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 13.11.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Müasir dövrdə uşaqların sosiallaşma prosesində emosional intellektin rolu getdikcə daha çox diqqət mərkəzinə çəkilir. Cəmiyyətin sürətli inkişafı, texnoloji tərəqqi və sosial münasibətlərin mürəkkəbləşməsi şəraitində uşaqların yalnız intellektual biliklərlə deyil, eyni zamanda emosional və sosial bacarıqlarla da təmin olunması mühüm əhəmiyyət daşıyır. Emosional intellekt anlayışı- fərdin öz və başqalarının emosiyalarını dərk etmək, onları idarə etmək və sosial münasibətlərdə uyğun şəkildə ifadə etmək bacarığı kimi- uşaqların psixososial inkişafının əsas indikatorlarından biri hesab olunur [11]., [5]. Uşaqlıq dövründə bu bacarıqların formalaşması onların gələcəkdə sosial adaptasiya səviyyəsinə, özünəinamına, empatiya qabiliyyətinə və cəmiyyətə inteqrasiya potensialına birbaşa təsir göstərir.

Uşaqlarda emosional intellektin inkişafı, onların psixoloji rifahının təmin olunması və sosial mühitdə balanslı davranış nümayiş etdirməsi üçün vacibdir. Bu baxımdan, emosional intellekt təkcə psixoloji kateqoriya deyil, həm də sosial rifah və sosial müdafiə sisteminin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Sosial müdafiə sistemi, uşaqların sosial-iqtisadi, psixoloji və emosional ehtiyaclarını qarşılayan kompleks mexanizmdir [2, 9]. Bu sistem çərçivəsində uşaqlara göstərilən sosial xidmətlər- psixososial dəstək, sosial reabilitasiya, ailə ilə iş, müdafiə və maarifləndirmə tədbirləri- uşaqlarda emosional dayanıqlığın formalaşmasına və müsbət sosial davranışların inkişafına şərait yaradır.

Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, müasir dövrdə uşaqlar çoxsaylı sosial risklərlə üz-üzə qalırlar: ailə münaqişələri, valideyn nəzarətinin zəifləməsi, informasiya mühitinin mənfi təsirləri, sosial bərabərsizlik və s. Bu amillər uşaqların emosional sabitliyini poza, onların sosial inteqrasiyasını çətinləşdirə bilər. Belə hallarda sosial müdafiə institutlarının- sosial xidmət mərkəzlərinin, məktəblərdə psixoloji xidmətlərin və qeyri-hökumət təşkilatlarının- fəaliyyətində emosional intellektin inkişafı prioritet istiqamət kimi nəzərə alınmalıdır [7]. Çünki yüksək emosional intellekt səviyyəsinə malik uşaqlar streslə mübarizədə daha davamlı olur, empatiya və qarşılıqlı anlaşma bacarıqları inkişaf edir, bu isə onların sosial müdafiə sisteminə uyğunlaşmasını asanlaşdırır.

Eyni zamanda, sosial müdafiə sisteminin məqsədi yalnız sosial-iqtisadi təminatla məhdudlaşmamalıdır. O, həm də uşaqların daxili emosional balansının qorunmasına, özünütənzimləmə və sosial bacarıqlarının inkişafına yönəlməlidir. Uşaqlara yönəlik sosial xidmət proqramlarında emosional intellektin nəzərə alınması onların psixososial inkişafında mühüm rol oynayır və gələcəkdə sosial asılılıq risklərini azaldır. Bu baxımdan sosial işçilərin, pedaqoqların və psixoloqların emosional intellekt anlayışını dərk etməsi və onu praktik fəaliyyətlərdə tətbiq etməsi zəruridir.

**2.Azərbaycanda uşaqların sosial müdafiəsi siyasətinin xüsusiyyətləri**

Azərbaycan Respublikası uşaqların təşəbbüskarlığının və yaradıcılıq qabiliyyət-lərinin inkişafına xüsusi diqqət yetirir, çünki istedadlı və bacarıqlı uşaqların yetiş-dirilməsi bütün cəmiyyətin gələcək inkişafı üçün böyük perspektivlər deməkdir. **Uşaq Hüquqları haqqında Qanun**: 1998-ci ildə qəbul edilmiş bu qanun, uşaqların hüquqlarının qorunmasını təmin edən əsas hüquqi sənəddir. **BMT-nin Uşaq Hüquqları Konvensiyası**: Azərbaycan Respublikası 1992-ci ildə bu beynəlxalq sənədə qoşulmuşdur. **"Uşaq ili"nin elan edilməsi (2009)**: Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan edilmişdir. Bu sərəncam uşaqların hüquqlarının qorunmasına və sosial müdafiəsinin gücləndirilməsinə yönəlmişdir [1]. **"Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi**: 2020-ci il 27 noyabr tarixli sərəncamla təsdiq edilmiş bu fəaliyyət planı uşaqların sosial müdafiəsi sahəsində konkret tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

**3.Uşaqların sosial problemləri**

Ölkəmizdə uşaqların yaş həddi 0-dan 12 yaşa qədər olan şəxsləri əhatə edir. Uşaqların inkişafı onların yaşadıqları mühitdən, ailədən, sosial-iqtisadi vəziyyətdən və təhsildən birbaşa asılıdır. Sosial problemlər uşaqların həyatında mühüm rol oynayır və onların sağlam inkişafına təsir göstərir [1].

Uşaqlıq dövrü insanın həyatında ən həssas mərhələdir. Bu dövrdə uşaqlar psixoloji, fiziki və sosial inkişaf üçün sabit və dəstəkli mühitə ehtiyac duyurlar. Uşaqların xüsusiyyətləri onların maraq dairələri, oynamaq istəyi, öyrənməyə həvəs, sosial əlaqələr və ünsiyyət bacarıqları ilə bağlıdır. Sağlam cəmiyyətin formalaşması uşaqların sağlam və təhlükəsiz mühitdə böyüməsindən asılıdır.

Bugünkü uşaqların vəziyyəti, yaşadıqları çətinliklər və nailiyyətləri haqqında müxtəlif fikirlər var. Azərbaycan uşaqlarının problemləri iki qrupa ayrılır: dünya uşaqlarına xas ümumi çətinliklər və Azərbaycana məxsus xüsusi problemlər.

Uşaqların ən vacib problemləri sosial kontekstdə ortaya çıxır-ilk olaraq sağlıqlı inkişaf,təhsil,xüsusi qayğıya və sosial dəstəyə ehtiyacı olan uşaqların problem-ləridir. Bu problemlər içərisində, müxtəlif dövlət proqramları vasitəsilə həll edilməsi vacib olan bir neçə məsələni xüsusi olaraq qeyd etmək mümkündür.

**4.Rəqəmsal bərabərsizlik və sosial müdafiə problemi**

Müasir dövrdə texnologiyaların sürətli inkişafı həyatın demək olar ki, bütün sahələrinə təsir göstərir. Təhsil, əyləncə, kommunikasiya və informasiya əldə etmə imkanları artıq demək olar ki, yalnız internet və müxtəlif rəqəmsal vasitələr vasitəsilə mümkündür. Lakin bu imkanlardan uşaqlar arasında bərabər şəkildə istifadə edilə bilməməsi "rəqəmsal bərabərsizlik" problemini ortaya çıxarır.

Uşaqların rəqəmsal vasitələrə çıxışı ailənin maddi vəziyyəti, yaşadıqları ərazi və məktəbin texnoloji imkanları ilə sıx bağlıdır. Kənd yerlərində və ya aztəminatlı ailələrdə böyüyən uşaqların kompüterlər, planşetlər, smartfonlar və sürətli internetə çıxışı məhduddur. Bu isə onların təhsil imkanlarını məhdudlaşdırır, əlavə biliklər əldə etmək, onlayn resurslardan faydalanmaq və hətta dostları ilə ünsiyyət qurmaq imkanlarını azaldır [14].

Rəqəmsal bərabərsizlik yalnız texnologiyaya çıxışla bağlı deyil, həm də uşaqların rəqəmsal biliklər səviyyəsi ilə əlaqədardır. Bəzi uşaqlar kompüter və internetdən istifadə etməyi yaxşı bilsələr də, digərləri bu imkanlardan səmərəli istifadə edə bilmir. Bu fərq onların məktəb təhsilində, bilik və bacarıqlarının inkişafında əhəmiyyətli fərqlər yaradır.

Bu vəziyyət uşaqların sosial müdafiə problemləri ilə də bağlıdır. Rəqəmsal imkanlardan məhrum olan uşaqlar həm təhsil, həm də gələcək karyera baxımından əngəllərlə üzləşirlər. Eyni zamanda, sosial bərabərsizlik onları cəmiyyətdə digər uşaqlardan geri qoyur, psixoloji gərginlik və özünəinam problemlərinə səbəb ola bilər. Bu isə yalnız fərdi deyil, eyni zamanda cəmiyyət üçün də problemlər yaradır.

Bu problemi həll etmək üçün dövlət və qeyri-dövlət qurumları uşaqların rəqəmsal bərabərliyini təmin etməyə yönəlmiş müxtəlif tədbirlər həyata keçirir. Məktəblərdə kompüter siniflərinin yaradılması, onlayn dərslərə çıxış imkanlarının artırılması, aztəminatlı ailələr üçün texnologiya dəstəyi və rəqəmsal savadlılıq proqramları uşaqların sosial müdafiəsini gücləndirir və bərabər imkanlar təmin edir.

Nəticədə, rəqəmsal bərabərsizlik yalnız texnoloji yoxsulluq deyil, eyni zamanda sosial ədalətsizlik məsələsidir. Uşaqların hər biri texnologiyalardan bərabər şəkildə faydalana bildikdə onların təhsili, inkişafı və cəmiyyətə inteqrasiyası təmin edilə bilər. Bu da uşaqların gələcək həyat keyfiyyətinin yüksəlməsinə və cəmiyyətin davamlı inkişafına xidmət edir.

**5.Mənzil şəraiti və təhlükəsizlik**

Uşaqların sağlam və təhlükəsiz bir mühitdə böyüməsi onların fiziki, emosional və sosial inkişafı üçün son dərəcə vacibdir. Hər bir uşaq rahat bir evdə, təmiz və nizamlı şəraitdə yaşamaq hüququna malikdir. Yaxşı yaşayış şəraiti yalnız evin ölçüsü və ya mebellə məhdudlaşmır; burada təmizlik, işıqlanma, havalandırma, səs-küyün az olması və təhlükəsizliyin təmin olunması kimi amillər də böyük rol oynayır. Uşaqların həyatı boyunca özlərini qorunmuş hiss etmələri onların özünəinamını və sosial bacarıqlarını gücləndirir.

Təhlükəsizlik məsələsi isə uşaqlar üçün bir çox səviyyədə əhəmiyyətlidir. Fiziki təhlükəsizlik, məsələn, küçələrdə təhlükəsiz hərəkət etmə, məktəb və evdə qəza risklərinin minimuma endirilməsi, həmçinin zərərli və ya təhlükəli maddələrdən qorunma kimi aspektləri əhatə edir [10]. Emosional və sosial

təhlükəsizlik isə uşağın ailəsində və ya məktəbdə hörmət və qayğı görməsi, zorakılıq və psixoloji təzyiqdən uzaq olması deməkdir. Uşaqlar üçün təhlükəsiz mühit həm də onların öyrənməyə, kəşf etməyə və yeni dostluqlar qurmağa cəsarət etmələrini təmin edir.

Təəssüf ki, bir sıra uşaqlar gündəlik həyatlarında həm yaşayış şəraiti, həm də təhlükəsizlik baxımından çətinliklərlə üzləşirlər. Bəzi yerlərdə evlərin şəraiti yetərincə sağlam və rahat deyil, bu isə uşaqların gündəlik fəaliyyətlərinə və rifahına təsir göstərir.8. Həmçinin, ailə mühitində emosional və psixoloji zorakılıq halları uşaqların ruhsal inkişafına mənfi təsir edir, onların özünəinamını zəiflədir və məktəb, dostluq münasibətləri kimi sahələrdə çətinliklər yaradır. Belə çətinliklər nəticəsində uşaqların sağlamlıq, təhsil və ümumi inkişaf imkanları məhdudlaşır, onların gələcək perspektivləri risk altına düşür.

Buna görə də, uşaqların hüquqlarını qorumaq və onlara təhlükəsiz və sağlam yaşayış şəraiti təmin etmək cəmiyyətin və dövlətin əsas vəzifələrindən biridir. Uşaqların rahat və təhlükəsiz bir mühitdə böyüməsi onların gələcəkdə güclü, məsuliyyətli və yaradıcı fərdlər kimi yetişməsinə zəmin yaradır.

**6.Təhsil problemi**

Uşaqlarda təhsil problemləri müasir dövrün ən aktual sosial məsələlərindən biridir.Uşaqların keyfiyyətli və bərabər təhsil almaq imkanları onların gələcək inkişafına birbaşa təsir göstərir [16]. Son illərdə təhsil sahəsində müəyyən irəliləyişlər əldə olunsa da, hələ də bir sıra problemlər mövcuddur.

Əvvəla, ölkənin bir çox bölgələrində, xüsusilə də kənd və rayon ərazilərində uşaqlar üçün təhsil imkanları şəhərlərlə müqayisədə daha zəifdir. Məktəblərin maddi-texniki bazası, sinif otaqlarının vəziyyəti və tədris avadanlıqlarının çatışmazlığı uşaqların dərsləri tam mənimsəməsinə mane olur. Bəzi yerlərdə məktəblərin istilik sistemi, laboratoriyalar və kompüter otaqları ya yoxdur, ya da çox köhnə vəziyyətdədir. Bu isə uşaqların müasir bilik və bacarıqları öyrənməsini çətinləşdirir.

Eyni zamanda, müəllim çatışmazlığı da uşaqların təhsili üçün böyük problemdir. Xüsusilə kənd məktəblərində ixtisaslı müəllimlərin azlığı nəticəsində uşaqlar bəzi fənlərdən lazımi səviyyədə bilik əldə edə bilmirlər. Bəzən bir müəllim bir neçə fənni eyni vaxtda tədris etməyə məcbur qalır ki, bu da təhsilin keyfiyyətini aşağı salır.

Təhsil sahəsində digər bir çətinlik uşaqların dərsə davamiyyətidir. Ailənin sosial vəziyyətinin aşağı olması, uzaq məsafələrə getmək zərurəti və ya məktəblərin şəraitsizliyi bəzən uşaqların davamiyyətinə mənfi təsir göstərir. Bundan başqa, repetitorluq və məktəbdənkənar əlavə hazırlıqlara ehtiyacın artması da təhsildə bərabərliyin pozulmasına səbəb olur, çünki bütün ailələr bu xidmətlərdən istifadə edə bilmir.

Son illərdə dövlət tərəfindən bir sıra dövlət proqramlarının qəbul edilməsi, layihə-lərin təşkili qeyd olunan problemləri minimuma endirib.2.Yeni məktəblərin tikil-məsi, mövcud məktəblərin əsaslı təmiri, tədris prosesinə informasiya texnologiya-larının tətbiqi və elektron təhsil platformalarının yaradılması uşaqların təhsil im-kanlarını genişləndirir. Hal-hazırdada bu tədbirlər davam etdirilməkdədir.

**7.Uşaqlarda emosional intellekt**

Uşaqlarda emosional intellekt onların duyğularını dərk etmə, ifadə etmə və tənzimləmə bacarığı ilə bağlıdır [12]. Bu, yalnız sevincli və ya kədərli hissləri tanımaq deyil, həm də öz emosiyalarını idarə etmək, başqalarının hisslərinə həssas yanaşmaq və sosial münasibətlərdə uyğun davranış göstərmək qabiliyyətini əhatə edir.6 Emosional intellekti yüksək olan uşaqlar çətin situasiyalarda sakit qalmağı, konfliktləri konstruktiv şəkildə həll etməyi və empati qurmağı öyrənirlər. Bu bacarıqlar onların həm özünəinamını artırır, həm də dostları və ailə üzvləri ilə daha harmonik münasibətlər qurmasına kömək edir. Beləliklə, emosional intellekt uşağın həm şəxsi inkişafı, həm də sosial mühitdə uğurlu və balanslı böyüməsi üçün vacib bir əsas rol oynayır.

**8.Əxlaqi və mənəvi tərbiyə**

Uşaqların mənəvi tərbiyəsi cəmiyyətin gələcəyini müəyyən edən ən mühüm sahələrdən biridir. Bu tərbiyə uşağın şəxsiyyətinin formalaşmasında, davranış normalarının, əxlaqi dəyərlərin, humanist münasibətlərin yaranmasında əsas rol oynayır [3]. Müasir dövrdə mənəvi tərbiyənin aktuallığı daha da artmışdır, çünki texnologiyanın, sosial medianın, qloballaşmanın təsiri altında uşaqların dəyərlər sistemində dəyişikliklər müşahidə olunur [13].

BMT-nin Uşaq Fondunun (UNICEF) 2024-cü ildə apardığı araşdırmalara əsasən, dünyada 6-16 yaş arası uşaqların təxminən 42%-i gündəlik həyatında empatiya, hörmət və məsuliyyət kimi mənəvi dəyərlərin formalaşmasında ailə və məktəb təsirinin azaldığını bildirib. Azərbaycanda aparılan "Uşaqların rifahı və sosial inkişaf göstəriciləri" tədqiqatına görə isə valideynlərin təxminən 68%-i mənəvi tərbiyənin əsas vasitəsi kimi ailə mühitini görür, lakin yalnız 47%-i uşaqları ilə bu mövzuda müntəzəm söhbətlər etdiyini qeyd edib. Bu fakt göstərir ki, mənəvi dəyərlərin öyrədilməsi praktikada nəzəri səviyyədən geri qalır.

Təhsil Nazirliyinin 2023-cü il hesabatına görə, məktəblərdə həyata keçirilən "Məktəbdə mənəvi dəyərlər" layihəsi çərçivəsində aparılan müşahidələr göstərib ki, mənəvi tərbiyə ilə bağlı fəaliyyətlərdə iştirak edən uşaqların 73%-i daha yüksək sosial məsuliyyət hissi nümayiş etdirib, sinifdaxili davranış qaydalarına daha çox riayət edib. Bu, mənəvi tərbiyənin uşaqların davranışına birbaşa müsbət təsir etdiyini sübut edir.

Sosioloji araşdırmalar da göstərir ki, ailə və məktəb uşağın mənəvi inkişafında bir-birini tamamlayan iki əsas institutdur. Lakin müasir dövrdə

sosial mediada aqressiv, eqoist və materialist dəyərlərin təbliği uşaqların mənəvi düşüncəsini mənfi istiqamətə yönləndirə bilər. 2022-ci ildə “World Vision” təşkilatının region üzrə hesabatında qeyd olunur ki, internetdən gündə 3 saatdan artıq istifadə edən uşaqlarda sosial empatiya səviyyəsi 27% aşağı, aqressiv davranış meyli isə 19% yüksək olur.

Beləliklə, uşaqların mənəvi tərbiyəsi yalnız ailənin deyil, həm də məktəbin, dövlətin və cəmiyyətin ümumi məsuliyyətidir. Mənəvi tərbiyə uşaqlarda vicdan, mərhəmət, dürüstlük, məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına, sağlam düşüncəli, empatik və cəmiyyətə faydalı vətəndaş kimi yetişmələrinə zəmin yaradır. Uşaqların mənəvi tərbiyəsinə sistemli şəkildə diqqət ayrılmadıqda isə onların gələcəkdə sosial və emosional çətinliklərlə üzləşmə ehtimalı artır.

**9.Uşaqların inkişaf indeksi**

Uşaqların inkişaf indeksi iqtisadi göstəricilər, xüsusilə ölkənin adambaşına düşən ümumi daxili məhsulu (ÜDM) ilə sıx bağlıdır, çünki yüksək ÜDM uşaqların sağlamlıq, təhsil və sosial rifah imkanlarını artırır [15]. Məsələn, ABŞ-da uşaqların inkişaf imkanları yüksəkdir, çünki ölkədə adambaşına düşən illik ÜDM təxminən 25 min dollar civarındadır və bunun nəticəsində uşaqlar yaxşı təhsil müəssisələrinə, tibbi xidmətlərə və müxtəlif sosial proqramlara çıxış əldə edirlər.

Yaponiya və Almaniyada vəziyyət oxşardır; hər iki ölkədə adambaşına düşən ÜDM illik 25 min dollar civarındadır. Bu yüksək iqtisadi səviyyə uşaqların əhatəli inkişafına şərait yaradır: sağlamlıq xidmətləri geniş, təhsil sistemi yüksək standartlara malik və sosial dəstək proqramları uşaqların həyat keyfiyyətini artırır.

İnkişaf etmiş digər Avropa ölkələrində, məsələn İsveç, Norveç və Hollandiya kimi ölkələrdə adambaşına düşən ÜDM təxminən 20 min dollar civarındadır. Bu ölkələrdə uşaqlar üçün sosial və təhsil imkanları güclüdür, həmçinin uşaqların fiziki və psixoloji inkişafını dəstəkləyən proqramlar mövcuddur.

Rusiyada isə adambaşına düşən ÜDM nisbətən aşağıdır, ildə təxminən 3-4 min dollar təşkil edir. Bu, uşaqların inkişaf imkanlarını məhdudlaşdıra bilər, xüsusilə tibbi xidmətlər və yüksək keyfiyyətli təhsil sahəsində.

Azərbaycanda adambaşına düşən ÜDM illik təxminən 3,5 min dollar səviyyəsindədir. Bu iqtisadi vəziyyət uşaqların inkişafına təsir edir: məktəb infrastrukturu və səhiyyə imkanları regionlara görə fərqlənir, bəzi bölgələrdə uşaqların keyfiyyətli təhsilə və tibbi xidmətə çıxışı məhdud ola bilər [4]. Lakin son illərdə ölkədə uşaqlar üçün sosial proqramlar və sağlamlıq xidmətlərinin inkişaf etdirilməsi istiqamətində müəyyən irəliləyişlər müşahidə olunur.

**10.Nəticə**

Uşaqlarda emosional intellektin inkişafının sosial müdafiə sistemi ilə inteqrasiyası onların psixososial rifahını gücləndirir, sosial adaptasiyasını

asanlaşdırır və gələcəkdə məsuliyyətli, yaradıcı və empatik fərdlərin yetişməsinə zəmin yaradır. Bu inteqrativ yanaşma uşaqların inkişaf proqramlarında prioritet istiqamət kimi nəzərə alınmalıdır.

## 11.ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası. (1998). *Uşaq Hüquqları haqqında Qanun*. Bakı: Hüquq-normativ sənədlər toplusu.
2. Azərbaycan Respublikası. (2020). *"Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"*. Bakı: Rəsmi nəşrlər.
3. Təhsil Nazirliyi. (2023). *Məktəbdə mənəvi dəyərlərin tədrisi və sosial davranışın inkişafı üzrə hesabat*. Bakı: Təhsil Nazirliyi.
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). *Uşaqların sosial-iqtisadi və inkişaf göstəriciləri*. Bakı: Dövlət Statistika Komitəsi.
5. Arslan, H., və Kaya, E. (2019). *Çocuklarda Duygusal Zeka ve Sosyal Beceri Gelişimi*. İstanbul: Pegem Akademi.
6. Demir, M. (2021). *Okullarda Sosyal ve Duygusal Öğrenme Programları*. Ankara: Nobel Yayınları.
7. Yıldız, A., və Çetin, F. (2020). Çocukların sosyal uyum ve duygusal zekâ düzeylerinin incelenmesi. *Eğitim ve Bilim Dergisi, 45*(203), 55–74.
8. Левина, И. М. (2018). *Эмоциональный интеллект и социализация детей*. Москва: Просвещение.
9. Соколова, Т. В. (2020). *Социальная защита детей в современной России*. Санкт-Петербург: Питер.
10. Кузнецова, Н. А. (2019). Развитие эмоционального интеллекта у детей младшего возраста. *Вопросы психологии.*
11. Goleman, D. (1995). *Emotional Intelligence: Why It Can Matter More Than IQ*. New York: Bantam Books.
12. Mayer, J. D., Salovey, P., və Caruso, D. R. (2004). Emotional intelligence: Theory, findings, and implications. *Psychological Inquiry, 15*(3), 197–215.
13. UNICEF. (2024). *Child Well-being and Social Development Indicators*. New York: United Nations Children's Fund.
14. World Vision. (2022). *Digital Media and Child Development in the Region: Annual Report.*
15. Berk, L. E. (2018). *Development Through the Lifespan*. 7th ed. New York: Pearson.
16. Denham, S. A., və Burton, R. (2003). *Social and Emotional Prevention and Intervention Programming for Preschoolers*. New York: Springer.

## REFERENCES

1. Azerbaijan Republic. (1998). *Law on the Rights of the Child*. Baku: Collection of Legal-Normative Documents. (in Azerbaijani)
2. Azerbaijan Republic. (2020). *Action Plan for the Implementation of the Strategy on Children for 2020–2025*. Baku: Official Publications. (in Azerbaijani)
3. Ministry of Education. (2023). *Report on the Teaching of Moral Values and the Development of Social Behavior in Schools*. Baku: Ministry of Education. (in Azerbaijani)
4. State Statistical Committee of the Republic of Azerbaijan. (2024). *Socio-economic and Development Indicators of Children*. Baku: State Statistical Committee. (in Azerbaijani)
5. Arslan, H., & Kaya, E. (2019). *Emotional Intelligence and Social Skill Development in Children*. Istanbul: Pegem Akademi. (in Turkish)
6. Demir, M. (2021). *Social and Emotional Learning Programs in Schools*. Ankara: Nobel Publishing. (in Turkish)
7. Yildiz, A., & Cetin, F. (2020). Examination of Children’s Social Adaptation and Emotional Intelligence Levels. *Education and Science Journal, 45*(203), 55–74. (in Turkish)
8. Levina, I. M. (2018). *Emotional Intelligence and the Socialization of Children*. Moscow: Prosveshchenie. (in Russian)
9. Sokolova, T. V. (2020). *Social Protection of Children in Modern Russia*. Saint Petersburg: Piter. (in Russian)
10. Kuznetsova, N. A. (2019). Development of Emotional Intelligence in Young Children. *Questions of Psychology*. (in Russian)
11. Goleman, D. (1995). *Emotional Intelligence: Why It Can Matter More Than IQ*. New York: Bantam Books. (in English)
12. Mayer, J. D., Salovey, P., & Caruso, D. R. (2004). Emotional Intelligence: Theory, Findings, and Implications. *Psychological Inquiry, 15*(3), 197–215. (in English)
13. UNICEF. (2024). *Child Well-being and Social Development Indicators*. New York: United Nations Children’s Fund. (in English)
14. World Vision. (2022). *Digital Media and Child Development in the Region: Annual Report*. (in English)
15. Berk, L. E. (2018). *Development Through the Lifespan* (7th ed.). New York: Pearson. (in English)
16. Denham, S. A., & Burton, R. (2003). *Social and Emotional Prevention and Intervention Programming for Preschoolers*. New York: Springer. (in English)